# XALQIMIZIN YENİ YAZARI - PARLAQ İSTEDAD

## *Sevindik Nəsiboğlunun "Suverenliyimizi təmin edənlər" kitabına rəy-düşüncələrim*

*(Əvvəli ötən sayımızda)*

Azərbaycan əsgərlərinin ən qiymətləndirilməli cəhətlərindən biri də bu idi ki, onlar ermənilərin məlum fitnəkarlıqlarının, qəddarlıqlarının əvəzini ancaq torpaqlarımızı işğaldan azad etməklə çıxırdılar. Abbasov Fabil Qulam oğlu, Ağaxanov Osman Qədim oğlu, Ağayev Ceyhun Etibar oğlu, Ağayev Kənan Vahid oğlu, Ağabəyov Tural Təbriz oğlu haqqında yazılan qeydlər sənədli film-xronika kimi gözlərimizin önündə Azərbaycan əsgərinin möhtəşəm sıra keçidini təqdim edir. Alıyev Fərid Tofiq oğlu haqqında müəllifin qeydlərinə baxıram. Bu çox gənc, yeniyetmə bir Azərbaycan əsgəridir. Üzünə, yəni fotoya canlı insan kimi baxmamaq olmur. Bir tərəfdən də gün işığı düşür. Elə bil ki, bu gəncin bütün ruhu görünür. Düşünürəm ki, Sevindik Nəsiboğlu təqdim etdiyi qəhrəmanların fotolarını seçməyə də xüsusi diqqət göstərir.

Fərid Şamaxı şəhərində anadan olub və elə Şamaxıdakı Şəhidlər Xiyabanında da torpağa tapşırılıb. Vətənin çox dəyərli təltiflərinə layiq görülüb.

Yaxud, Murad Təvəkkül oğlu haqqında da ayrıca bir neçə kəlmə danışmaq yerinə düşər. Azərbaycan bayrağının fonunda gələcəyə zillənmiş baxışları xüsusi inam təlqin edir. Biz vətən uğrunda savaşın qələbə ilə qurtarmasının, antiterror əməliyyatının uğurla başa çatmasının xəbərini sanki onun baxışlarından oxudum. Bəli, Azərbaycan əsgəri özünə inamlı idi. Şəhid əsgər Murad Arzullayev haqqında qeydləri müəllif belə bitirir: "Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Murad Arzullayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir". Beləliklə, Azərbaycanın qəhrəma oğullarının portretləri ilə üzbəüz dayanırıq. Sevindiyin təqdim etdiyi faktlar əsasında onlarla söhbət edirik, onlarla fikirlərimizi bölüşürük, düşüncələrimizi məhz aldığımız təəssürat əsasında yazıya çevirirık.

Aslanov Sahil Əhliman oğlu, Axundov Murad Xıdır oğlu, Babaşov Ucal Nərbala oğlu... adlar sanki canlanır, əsgərin özü kimi danışır. Mən yeni türk kökənli Azərbaycan adlarının qoyulmasını çox sevirəm. Azərbaycan əsgəri Ucal adını daşıyır. Bu adın hansı təəssüratı oyatdığını izah etməyə ehtiyac yoxdur. Çünki hərbir insan öz adının mahiyyətini dərk etdikcə onun cəmiyyətə, insanlara təsirini də öyrənir. Zənnimcə, Ucal Nərbala oğlu elə öz adına layiq bir döyüş yolu keçib. Ucal haqqında müəllif yazır: "Ucal Babaşov 19 sentyabr 2023-cü ildə Qarabağda təxribatçı və separatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı rəşadətli Azərbaycan Ordusunun başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Xocalı istiqamətində gedən döyüşlərdə böyük şücaət və igidlik göstərmişdir. Əsgər Ucal Babaşov 20 sentyabr 2023-cü ildə Xocalı rayonunun Dəhrəz kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Şəhidimizin nəşi doğulduğu İmişli rayonunun Xəlfəli kəndində torpağa tapşırılmışdır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Ucal Babaşov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir". Söz yox, bütün təltiflər qəhrəman Azərbaycan oğullarının, şəhidlərin, qazilərin haqqıdır. Bu təltiflər onların qəhrəmanlığının vətən tərəfindən etirafıdır. Mən inanıram ki, elə Ucalın da doğulub böyüdüyü Xəlfəli kəndində onun büstü qoyulacaq, adı əbədiləşdiriləcək. Şübhəsiz, hər birimiz vətən şəhidlərinin adına ehtiramı birmənalı şəkildə təqdir edirik.

Şəhidlər haqqındakı xronika davam edir. Sanki gözlərimizin önündən rəngli bir sinema lövhələri ötür. Babayev Sahil Sarıbala oğlunu, Babazadə Əli Rüstəm oğlunu, Bağırov Ülvi Hənifə oğlunu, Balabəyli Elcan Vasif oğlunu, Bayramov Davud Şamil oğlunu, Bayramov İxtiyar Bayram oğlunu, Bayramov Tapdıq Namiq oğlunu... beləcə bu qəhrəmanların hər birini gözlərimizin önündən keçən sinema lövhələri kimi müşahidə edirik. Bədəlov Ouc Arif oğlunun şəklinə baxan yad bir xalqın nümayəndəsi onun necə qəhrəman olduğunu təsəvvür edə bilməz. Çünki Oruc Arif oğlu fotodan məsum uşaq görkəmi ilə baxır. Ancaq canlı, diri gözləri ilə vətən torpağı uğrunda vuruşduğu üçün qürurludur. Zənnimcə, o, şəhidlik məqamına yüksələndə də inamlı və gülümsər çöhrəsini döyüş yoldaşlarına əmanət edib. Röyal Nəsiboğlu, Bilalov Sərxan İsmət oğlu, Cahangirov Tural Qələmhüseyn oğlu, Canbaxışov Xəyal Xeyrulla oğlu, Cəfərov Elşad Malik oğlu, Cəfərov



Malik Asif oğlu, Cəfərov Oleq Qılıc oğlu, Cəfərov Rəvan Məhəmmədəli oğlu... Adlar fərqlidir, doğulub-böyüdükləri yerlər ayrı-ayrıdır. Ancaq sanki eyni ananın övladlarıdır, eyni yaşdadırlar. Mən elə bu qənaətimə inanıram, çünki onlar üçün ana-ata Azərbaycan torpağıdır, Azərbaycandır. Onlar hamısı bir vətənin övladlarıdır, ona görə bir-birinə bənzərdirlər. Şəhid kapitan Xəzər Qalib oğlu haqqında da ayrıca təəssürat bölüşmək vacibdir. Çünki o, hələ Aprel döyüşlərinin iştirakçısı olub. 44 günlük savaşda qəhrəmanlıqla döyüşüb. İgid kapitan haqqında müəllif yazır: "Xəzər Cəfərov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdam-Ağdərə istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərmişdir. Kapitan Xəzər Cəfərov 20 sentyabr 2023-cü ildə Ağdam rayonunun (indiki Ağdərə rayonunun tərkibinə daxil edilmiş) Sırxavənd kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 22 sentyabr 2023-cü ildə Neftçala Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır. Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Xəzər Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir". Düşünürəm ki, Xəzər Cəfərov kimi zabitlərin döyüş yolu tam öyrənilməlidir. Onların doğulub-böyüdükləri yerlərdə ev muzeyləri yaradılmalıdır. Orta məktəbin hər bir buraxılışı həmin muzeyi ziyarət edərək həyatın daha geniş axarına qoşulmalıdır. Çünki belə qəhrəmanların döyüş yolu elə özü bir tarix dərsliyidir.

Cəlilov Devid Raufoviç, Daşdəmirov Sahib Natiq oğlu, Dünyamalıyev İslam Teymur oğlu, Dünyamalıyev Rüstəm Nəriman oğlu, Ədilzadə Ədil Rövşən oğlu, Əhədov Eltac Əjdər oğlu... hər bir qəhrəman haqqındakı qısa qeydləri ötəri təəssüratla oxumaq olmur. Az müddət içərisində Azərbaycanın nə qədər qəhrəman oğullar yetirdiyinin şahidi oluruq. Elvin Əhmədov, Rizvan Əhmədov, Vilayət Əhmədov, Vüsal Əhmədov... soyadlar eynidir. İlk baxışdan adama elə gəlir ki, bunlar bir ailənin övladlarıdırlar. Yenə bayaqkı sözümü xatırladıram; onlar həqiqətən bir ailənin, yəni azərbaycanlıların birliyində öz möhtəşəmliyini təsdiq edən xalqın övladlarıdır.

Zaman keçdikcə, tarixi hadisələr də bizdən uzaqlaşır. Ancaq elə tarixi hadisələr var ki, onları bir çox cəhətlərinə görə heç vaxt unutmaq olmaz. Vaxtı ilə erməniləri Qafqaza köçürərək Azərbaycan torpaqlarının hesabına onlara dövlət yaratdılar. Ancaq bu həqiqətlər uzun müddət gizlədilib, aşkar məlumatlar xalqa çatdırılmayıb. Bu da Azərbaycan tarixinin yaddaşımızdan silməyə xidmət edib.

İndi Sevindik Nəsiboğlu kimi müəlliflərin kitabları təkcə hadisənin xronikasını təqdim etmir, həm də xalqımızın tarixi yaddaşının qorunmasına xidmət edir. Ayrı-ayrı ailələrdə doğulub-böyümüş Azərbaycan oğulları vətənin hər qarışını müqəddəs bildiyi üçün bu savaşda bizim ordumuz qalib gəldi. Əslində Sevindik Nəsiboğlu bu ideyanı yeni gəncliyə məhz öz kitabı ilə təlqin edir. Harada olsaq, nə iş görsək də, biz vətən qarşısında hesabat verməliyik. Vətənin tarixi taleyi bizim hər birimizdən asılıdır, çünki biz birlikdə olanda güclüyük.

Qeydlərimin bu yerində yenə müzəffər Ali Baş Komandanın qələbə əzmli çıxışlarını xatırlayıram. O, Azərbaycan əsgərləri qarşısında inamla, sevgi ilə, qürurla çıxış edirdi. Dalğalanan əzəmətli bayrağımızın altında hər dəfə sözünü bitərərkən yumruğunu havaya qaldırır, birmənalı şəkildə deyirdi ki, "Qarabağ Azərbaycandır". İndi düşünüəm ki, hər bir Azərbaycan əsgəri ayrılıqda bu həqiqət tapındığı üçün yenilməz olub, sonsuz inamla döyüşün ən ağır yerinə atılıb və nəhayət, Azərbaycan torpağı uğrunda həlak olmağı özünə şərəf bilib, şəhidlik zirvəsinə yüksəlib. Çünki onlar üçün Qarabağ öz doğma yurdudur, doğulub-böyüdüyü yerdir. Vətənin yad yeri yoxdur, vətən hər kəsə əzizdir. Mən inanıram ki, S.Nəsiboğlu gələcəkdə hələ çox kitablar yazacaq. Ən başlıcası, qəhrəmanlarının həlak olduğu yerləri edib öz gözləri ilə görəcək. Kimin harada, necə həlak olduğu ilə bağlı özünün yeni əsərlərini yazmağa hazırlaşacaq. Bəli, Sevindik Nəsiboğlunun "Antiterror şəhidləri" kitabı gözəl əsərdir. Yeri gəmişkən, burada qeyd edim ki, elə Sevindiyin özü də Azərbaycan xalqının yeni, parlaq bir əsəridir.

Beləliklə, kitabda cəmlənmiş materiallar əsasında bu və ya digər dərəcədə fikir və düşüncələrimizi oxucularla bölüşmək istədik. Ancaq bu işin çətin tərəfi də var. Yəni mənəvi məsuliyyət hissi. Adama elə gəlir ki, hansısa bir şəhidin adını çəkməmisən, onun ruhu başının üstündədir və sanki inciklіyini bildirir. Düşünürəm ki, Sevindik Nəsiboğlu belə çox çətin və məsuliyyətli bir işin öhdəsindən gəldiyi üçün narahat olmağa dəyməz. Çünki onun gördüyü iş bizim üçün də təskinlikdir. Qoy kitabı vərəqləyən hər kəs öz qəhrəmanların cərgəsinə daxil olsun, səhifələri onlarla birgə keçsin. Yalnız bu yolla hər bir oxucu vətən şəhidləri qarşısında öz ehtiramını ifadə etmiş olar. Ən başlıcası, elə bizim özümüz də şəhidlərimizin adbaad salnaməyə çevrilməsindən təskinlik tapırıq. Bir-iki məqama da işıq salmaq istərdim. Düşünürəm ki, sosial şəbəkələrdə şəhid xronikaları haqqında məlumatlara müəyyən məhdudiyyətlər qoyulduğu üçün Sevindik Nəsiboğlunun "Antiterror şəhidləri" kitabı pdf halında sosial şəbəkədə yerləşdirilə bilər. Elə hər hansı bir qəhrəman haqqında məlumat almaq istəyən şəxs yazıçı, publisist, şair Sevindiyin açıq ensiklopediyasına (vikipediya) müraciət etməklə hər hansı məlumatı dəqiqliklə və yetərincə ala bilər. Onu da qeyd edim ki, bu kitab hər bir rayonun kitabxanasına göndərilməlidir. Bölgədəki muzeylərdə bu kitabın nüsxələri olmalıdır. Qoy tarixdə nadir olan antiterror savaşı haqqında məlumat almaq istəyən hər kəs əhatəli şəkildə məlumatlansın. Çünki ermənilər bizim tarixi düşmənlərimiz olmaqdan geri çəkilmək niyyətində deyillər. Gələcək nəsillər üçün antiterror əməliyyatı qeyri-adi döyüş hadisəsi kimi yaddaşlarlarda yaşadılmalıdır.

S.Nəsiboğlu, birmənalı şəkildə qeyd etmək olar ki, artıq özünü təsdiq etmiş yazıçıdır. Onun bişmiş publisist olduğu, düşüncələrini poetik şəkildə ifadə etmək baxımından duyğulu bir sənətkar nolduğu digər kitablarından göründüyü kimi elə bu kitabı ilə də təsdiqlənir.

Mən S.Nəsiboğlunu gələcək tarixi romanların müəllifi kimi, əqidəli tədqiqatçı kimi görürəm. O, xalqımız haqqında əsl həqiqətləri gələcəkdə yazmaq və demək gücündə olan bir sənətkar kimi yetişməkdədir.

Yuxarıda dedim axı, Sevindik Nəsiboğlunun Azərbaycan xalqının yeni, parlaq əsəridir. Biz hələ bu əsəri daha yeni kitabları ilə çox ocuyacağıq.

*22.10.2024*

***Şəddat CƏFƏROV***